

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 47 (23.459)

*7 mart 2020-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 6 mart tarixli Sərəncamı ilə Qızıl Aypara Cəmiyyətinin 100 illiyi münasibətilə və aztəminatlı vətəndaşlara sosial xidmət və humanitar yardım göstərilməsi sahəsindəki xidmətlərinə görə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin bir qrup əməkdaşı təltif edilmişdir. Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin sədri Vəliyev Yaşar Vəli oğlu 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

## Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsində idarəetməni təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əsasında Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2020-ci il*

## Y.S.Allahverdiyevin Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Yəhya Salman oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə:

Abbasova Zəriş Tofiq qızına

Hüseynova Məryəm Rzaqulu qızına – **"Əməkdar müəllim"** fəxri adı;

Hacıyeva Nəsibə Şəmil qızına – **"Əməkdar tibb işçisi"** fəxri adı;

Hüseynova Ruhiyyə Nəriman qızına – **"Əməkdar artist"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2020-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 6 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – Cəmiyyət) "Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 06 mart tarixli 2-VI FR nömrəli Fərmanı ilə yaradılmışdır.

1.2. Cəmiyyət muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətləri, habelə içməli su təchizatı və kanalizasiya sistemi xidmətlərini göstərən, torpaqların su təminatını həyata keçirən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını təşkil edən, bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirən səhmləri dövlətə məxsus açıq səhmdar cəmiyyətdir.

1.3. Cəmiyyət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ-hüquqi aktları və bu Nizamnaməni rəhbər tutur.

1.4. Cəmiyyətin aparatı və tabeliyində olan qurumlar Cəmiyyətin strukturunu təşkil edir.

1.5. Cəmiyyətin hüquqi ünvanı: Naxçıvan şəhəri.

### 2. Cəmiyyətin hüquqi statusu

2.1. Cəmiyyət hüquqi şəxsdir, müstəqil balansa, xəzinə və bank hesablarına malikdir.

2.2. Cəmiyyətin ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlaka cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququna malikdir.

2.3. Cəmiyyət üzərində Dövlət gerbi təsvir edilmiş və Cəmiyyətin adı göstərilmiş möhürə, müvafiq ştampa və blanka malikdir.

### 3. Cəmiyyətin vəzifə və funksiyaları

3.1. Cəmiyyət aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. öz səlahiyyətləri daxilində su istehlakçılarını su ilə təmin etmək;

3.1.2. yerüstü və yeraltı su obyektlərinin istifadəsini, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin (Sudan İstifadəedənlər Birliklərinin istifadəsində olan sistemlər istisna olmaqla) istismarını, mühafizəsini və suvarılan torpaqların meliorativ vəziyyəti üzərində nəzarəti həyata keçirmək;

3.1.3. su obyektlərindən götürülən suları müəyyən olunmuş qaydada bölüşdürmək və onlardan istifadəyə nəzarət edilməsini təmin etmək;

3.1.4. içməli su ehtiyacları üçün nəzərdə tutulan su kəmərlərindəki sudan digər məqsədlərlə istifadə edilməsini aradan qaldırmaq;

3.1.5. torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə dövlət meliorasiya xidmətini inkişaf etdirmək;

3.1.6. meliorasiya və su təsərrüfatı sahəsində proqramların həyata keçirilməsini təmin etmək;

3.1.7. meliorasiya və su təsərrüfatı sahəsinin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək və bu istiqamətlərə dair proqnoz və layihələrin, standart, norma və qaydaların hazırlanmasında iştirak etmək;

3.1.8. dövlət büdcəsindən, xidmətlər və digər mənbələrdən daxil olan vəsaitlər hesabına görülən əsaslı tikintinin sifarişçisi, podratçısı, istismar tədbirlərinin icraçısı kimi çıxış etmək;

3.1.9. Sudan İstifadəedənlər Birliklərinin fəaliyyətinə nəzarəti qanunvericiliyə uyğun olaraq öz səlahiyyətləri daxilində həyata keçirmək;

3.1.10. su təchizatına yönəldilən xərclərin qismən ödənilməsini təmin etmək məqsədi ilə mövcud qanunvericiliyə uyğun olaraq, sudan pullu istifadəni təmin etmək;

3.1.11. yerüstü və yeraltı su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınması üzrə təklifləri və yerüstü su obyektlərinin monitorinq məlumatlarını aidiyyəti dövlət orqanlarına təqdim etmək;

3.1.12. səlahiyyətləri daxilində müvafiq beynəlxalq öhdəliklərin həyata keçirilməsini təmin etmək;

3.1.13. dövlət mülkiyyətində olan su obyektləri üzrə xüsusi suburaxma, çaylardan sel və daşqın sularının axıdılma və su anbarının doldurulub boşaldılma rejimlərini müəyyən etmək və həyata keçirmək;

3.1.14. dövlət mülkiyyətində olan meliorasiya və su təsərrüfatı obyektlərinin istismarı zamanı, eləcə də yeni tikiləcək belə obyektlərin layihələrində təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsini təmin etmək;

3.1.15. suların zərərli təsirinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə tədbirlər işləyib həyata keçirmək, sahilqoruyucu obyektlərin istismarını təşkil etmək;

3.1.16. su obyektlərinin su mühafizə zonalarını və sahil mühafizə zolaqlarının ölçülərini, sərhədlərini və istifadəsini müvafiq dövlət orqanları ilə razılaşdırmaqla müəyyən etmək və təsdiq olunması üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.1.17. meliorasiya və su təsərrüfatı obyektləri boyunca qoruyucu meşə zolaqlarının salınmasını, onların saxlanılmasını və qorunmasını təmin etmək;

3.1.18. müasir elm, texnika və mütərəqqi texnologiyalar əsasında sahənin inkişafını təmin etmək;

3.1.19. hüquqi və fiziki şəxslər tərəfindən sudan istifadə qaydalarına və normalarına əməl olunmasına səlahiyyətləri daxilində nəzarət etmək, bu normaları və qaydaları pozanlara qarşı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər görmək;

3.1.20. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

3.2. Cəmiyyət qarşısında duran vəzifələrə uyğun olaraq aşağıdakı funksiyaları həyata keçirir:

3.2.1. meliorasiya və su təsərrüfatı sahəsində ümumi tədbirləri və əsas istiqamətləri müəyyən edir;

3.2.2. meliorasiya və su təsərrüfatı sahəsində istismar, təmir-bərpa, əsaslı tikinti, yenidənqurma işlərinin aparılmasını təmin edir;

3.2.3. içməli su qurğularının yeni texnologiyalar əsasında qurulması və əhalinin içməli su ilə təchizatı sahəsində müvafiq tədbirlər həyata keçirir, verilən içməli suyun keyfiyyətli olmasını təmin edir;

3.2.4. su sayğaclarının quraşdırılması, yoxlanılması və təmirini həyata keçirir;

3.2.5. su təchizatı və kanalizasiya sistemi obyektlərində qanunvericilikdə nəzərdə tutulmuş sanitar-mühafizə zonalarını yaradır və ona nəzarət rejiminin həyata keçirilməsini təmin edir;

3.2.6. tullantı sularını kənar etmək və təmizləmək üçün kanalizasiya qurğuları və sistemlərinin işi üzrə tabeliyində olan təşkilatların fəaliyyətini təşkil edir və onlara nəzarəti həyata keçirir;

3.2.7. qanunvericiliklə müəyyən edilmiş qaydada suların dövlət uçotunu və dövlət su kadastrını öz səlahiyyətləri daxilində aparır;

3.2.8. kəhrizlərin, meliorasiya - irriqasiya və içməli su - kanalizasiya sisteminin və digər hidrotexniki qurğuların pasportlaşmasını və kadastrını aparır;

3.2.9. yeraltı içməli su mənbələrindən, o cümlədən kəhrizlərdən səmərəli istifadəni və onlara nəzarəti təşkil edir;

3.2.10. içməli suya olan tələbatı müəyyən edir, əhalini içməli su ilə təmin edir;

3.2.11. içməli və suvarma suyuna olan tələbatı nəzərə almaqla subartezian quyularının qazılmasını və istismarını təmin edir;

3.2.12. içməli və suvarma suyundan qənaətlə istifadəni təmin edir, mütərəqqi suvarma şəbəkələri qurur;

3.2.13. suvarılan və meliorasiya olunmuş torpaqların uçotunu təşkil edir və monitorinqini aparır;

3.2.14. müəyyən edilmiş qaydada hidrotexniki qurğuların dövlət reyestrini öz səlahiyyətləri daxilində aparır;

3.2.15. səlahiyyətləri daxilində muxtar respublika üzrə, hövzə və inzibati-ərazi vahidləri üzrə su təsərrüfatı balanslarını hazırlayır;

3.2.16. yerüstü su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi baş sxemini, hövzə və ərazi sxemlərini müvafiq dövlət orqanları ilə birlikdə hazırlayır;

*Ardı 2-ci səhifədə*

3.2.17. dövlət büdcəsi, kreditlər, qrantlar, texniki yardımlar, xidmətlər və digər mənbələr hesabına Cəmiyyətin sərəncamına daxil olan vəsaitlərdən təyinatı üzrə istifadə edilməsini, müvafiq investisiya layihələri üzrə müsabiqə sənədlərinin tərtibini, malların (işlərin və xidmətlərin) satın alınması üçün qanunvericiliyə uyğun olaraq müsabiqələrin keçirilməsini təşkil edir;

3.2.18. meliorasiya və su təsərrüfatı sahəsində dövlət xidmətlərinin, habelə içməli su təchizatı və kanalizasiya sistemi xidmətlərinin göstərilməsi, torpaqların su təminatının həyata keçirilməsi, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarı ilə bağlı büdcə vəsaitinə tələbatı müəyyənləşdirir və aidiyyəti üzrə təqdim edilməsini təşkil edir;

3.2.19. meliorasiya və su təsərrüfatı sahəsinə investisiyaların, o cümlədən xarici investisiyaların cəlb olunmasının təşkilində iştirak edir və bu sahədə lazımi iş aparır;

3.2.20. əsaslı vəsait qoyuluşundan səmərəli istifadə olunmasını, tikilən və yenidən qurulan obyektlərin, istehsal güclərinin və əsas fondların vaxtında istifadəyə verilməsini təmin edir;

3.2.21. Sudan İstifadəedənlər Birlikləri, ayrı-ayrı idarə, müəssisə və təşkilatlar, ailə kəndli təsərrüfatları, vətəndaşlar, digər su istifadəçiləri ilə müqavilələr əsasında meliorasiya və su təsərrüfatı sistemlərinə və qurğularına texniki xidmətin göstərilməsini təmin edir, bu məqsədlə yerlərdə servis təşkilatlarını lazımi avadanlıq, maşın-mexanizmlər və ixtisaslı mühəndis-texniki kadrlarla təmin edir;

3.2.22. mühasibat uçotunu təşkil edir, qanunvericiliklə müəyyən olunmuş qaydada illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edir;

3.2.23. meliorasiya və su təsərrüfatı sahəsi üzrə kadrların hazırlanması, onların ixtisaslarının artırılması istiqamətində müvafiq tədbirlər görür;

3.2.24. işçilərin sosial-məişət və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası qaydalarına riayət edilməsini təmin edir;

3.2.25. vətəndaşların təklif, ərizə və şikayətlərinə baxılmasını və onların qəbulunu təmin edir, daxil olmuş müraciətlərə vaxtında cavab verir;

3.2.26. Cəmiyyətin səfərbərliyə hazırlığını təmin edir;

3.2.27. Cəmiyyətin fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin müəyyən edilmiş qaydada komplektləşdirilməsini, saxlanmasını və uçotunu təmin edir;

3.2.28. meliorasiya və irriqasiya sistemlərinin istismarı və saxlanması qaydalarının yerinə yetirilməsini təmin edir;

3.2.29. Cəmiyyətin saxlanması və ona həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılan məqsədyönlü vəsaitin sifarişçisi funksiyalarını həyata keçirir;

3.2.30. sərhəd su obyektlərindən istifadəni, meliorasiya və irriqasiya sistemlərinin dövlətlərarası birgə istismarını təmin edir;

3.2.31. meliorasiya və su təsərrüfatı obyektlərinin tikintisi üzrə sifarişçi funksiyalarını həyata keçirir;

3.2.32. su ehtiyatlarından istifadə edilməsi ilə bağlı yeni müəssisələrin tikilməsi və mövcud müəssisələrin yenidən qurulmasının layihələndirilməsi zamanı su ehtiyatlarının olması barədə rəy verir, su ehtiyatlarından istifadə edən bütün obyektlər üzrə yerayırma və istismara qəbul komissiyalarının işində iştirak edir;

3.2.33. səlahiyyətləri daxilində beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, meliorasiya və su təsərrüfatı sahəsində xarici təşkilatlarla iqtisadi, istehsalat və elmi-texniki əlaqələr yaradır;

3.2.34. meliorasiya və irriqasiya sahəsində tövsiyə xarakterli metodiki sənədlər hazırlayır və onları təsdiq edir;

3.2.35. su istifadəçilərindən sudan istifadənin vəziyyəti barədə lazımi məlumatlar alır;

3.2.36. hidrotexniki qurğuların təyinatı üzrə təhlükəsizlik bəyannamələrini öz səlahiyyətləri daxilində təsdiq edir;

3.2.37. əhalinin sağlamlığının, ətraf mühitin və tarixi-mədəni irsin, habelə başqa şəxslərin qanuni hüquqlarının və maraqlarının qorunması məqsədi ilə səlahiyyətləri daxilində su obyektlərindən və onların bir hissəsindən istifadəni məhdudlaşdırmaq, dayandırmaq və qadağan etmək üçün müvafiq təqdimatlar hazırlayır;

3.2.38. səlahiyyətləri daxilində su obyektlərindən balıqçılıq üçün istifadəni razılaşdırır, su tutarlarını və ya onların müəyyən hissələrini idman və həvəskar balıq ovu üçün ayırır;

3.2.39. səlahiyyətləri daxilində su obyektlərindən tullantı sularının axıdılması üçün istifadə edilməsinə razılıq verir və ya tullantı sularının su obyektlərinə axıdılmasını məhdudlaşdırır, dayandırır, qadağan edir;

3.2.40. qanunvericiliyə uyğun olaraq su mühafizə zonalarındakı torpaqların istifadəsinə razılıq verir və bu ərazidəki fəaliyyətə nəzarəti səlahiyyətləri daxilində həyata keçirir;

3.2.41. su obyektlərinin bərpası və mühafizəsi sahəsində bələdiyyələr və su istifadəçiləri ilə hövzə sazişləri bağlayır;

3.2.42. sanitariya, hidrotexniki və meliorasiya tədbirlərinin görülməsi halları istisna olmaqla, çaylarda, çay qollarında, meliorasiya və irriqasiya sistemlərində qalaqların yaradılmasının, su axımının qarşısının özbaşına kəsilməsinin, göllərdən su buraxılmasının qarşısını alır;

3.2.43. suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikiləcəyi yerləri müəyyənləşdirir, onların tikinti layihələrinə rəy verir, obyektlərin istismara verilməsini razılaşdırır;

3.2.44. müəyyən müddət üçün yerüstü və yeraltı su ehtiyatlarından istifadənin son həddini göstərən limitlər və kvotalar müəyyən edir, müqavilələr bağlayır, qanunvericiliklə müəyyən edilmiş qaydada və hallarda yerüstü su ehtiyatlarından istifadəyə icazə verir;

3.2.45. qanunvericiliyə uyğun olaraq istismar müddətini başa vurmuş, iqtisadi baxımdan məqsədəuyğun sayılmayan, təmiri və bərpası səmərəli hesab edilməyən əsas vəsaitləri balansdan silir;

3.2.46. sərhədboyu sularda meliorasiya və irriqasiya sistemləri və qurğularının yaradılması və onlardan istifadə edilməsi sahəsində beynəlxalq müqavilələrin hazırlanmasında iştirak edir;

3.2.47. səlahiyyətləri daxilində mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, bələdiyyələrdən, fiziki və hüquqi şəxslərdən müəyyən olunmuş qaydada arayışlar və məlumatlar alır;

3.2.48. qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növlərini həyata keçirir.

3.3. Cəmiyyət bu Nizamnamə ilə nəzərdə tutulan vəzifə və funksiyalarını Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə həyata keçirir.

**4. Cəmiyyətin əmlakı**

4.1. Cəmiyyətin gəlirləri dövlət büdcəsindən, büdcədənkənar vəsaitdən, kreditlərdən, qrantlardan, xidmət və istehsaldan daxil olan, qanunvericiliklə qadağan olunmayan fəaliyyət növlərindən əldə edilən vəsaitlərdən ibarətdir.

4.2. Cəmiyyətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən və digər əmlakdan ibarətdir.

4.3. Cəmiyyətin əmlakının dəyəri onun balansında göstərilir.

4.4. Cəmiyyətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

4.4.1. nizamnamə kapitalına daxil olan əmlak;

4.4.2. səhmdarın vəsaiti hesabına;

4.4.3. təsərrüfat fəaliyyətinin həyata keçirilməsindən daxil olan gəlirlər;

4.4.4. qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

4.5. Cəmiyyətin nizamnamə kapitalının artırılması və ya azaldılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.

4.6. Cəmiyyətin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan, əmlak hüquqlarından və pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

**5. Cəmiyyətdə uçot, hesabat və nəzarət**

5.1. Cəmiyyət mühasibat uçotunu qanunvericiliyə və beynəlxalq standartlara uyğun olaraq aparır.

5.2. Cəmiyyətin maliyyə ili qeydiyyata alındığı vaxtdan başlayır və dekabrın 31-də başa çatır. Növbəti maliyyə ili isə yanvarın 1-dən başlayır və dekabrın 31-dək olan dövrü əhatə edir.

**6. Cəmiyyətin idarəetmə və icra orqanı**

6.1. Cəmiyyətin ali idarəetmə orqanı onun ümumi yığıncağıdır. Ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlər qanunvericiliyə uyğun olaraq həll edilir.

6.2. İdarə Heyəti Cəmiyyətin kollegial icra orqanıdır.

6.3. İdarə Heyəti qanunvericiliklə və bu Nizamnamə ilə Cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər istisna olmaqla, Cəmiyyətin idarə edilməsi ilə bağlı bütün məsələləri həll edir.

6.4. İdarə Heyətinin tərkibi 3 nəfərdən – sədr və 2 müavinindən ibarətdir.

6.5. İdarə Heyətinin işinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən sədr rəhbərlik edir.

6.6. Sədrin müavinləri Cəmiyyətin sədrinin təqdimatı əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

6.7. İdarə Heyəti:

6.7.1. sədr tərəfindən yaradılmış komissiyalarla birlikdə meliorasiya və su təsərrüfatı sistemlərinin istismarı, inkişafı ilə bağlı məsələləri, struktur bölmələrinin fəaliyyətinin yekunlarını, daxili audit yoxlamalarının nəticələri barədə və ortaya çıxmış çatışmazlıqların aradan qaldırılmasını, habelə Cəmiyyətin illik maliyyə tələbatını, suyun paylanma rejimlərini və digər məsələləri müzakirə edir, müvafiq qərarlar qəbul edir;

6.7.2. Cəmiyyətin Nizamnaməsində və strukturunda dəyişikliklər edilməsi üçün aidiyyəti üzrə təkliflər verir;

6.7.3. Cəmiyyətin inkişafı strategiyasının müəyyən edilməsi üçün aidiyyəti üzrə təkliflər verir;

6.7.4. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiq edilməsi üçün aidiyyəti üzrə təkliflər verir;

6.7.5. Cəmiyyətin, onun strukturuna daxil olan qurumların balansında olan əmlakın müstəqil qaydada (sistem daxilində) balansdan balansa, icarəyə və istifadəyə verilməsi barədə qərarlar qəbul edir;

6.7.6. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.

6.8. İdarə Heyətinin qərarları müvafiq protokollarla və bir qayda olaraq, sədrin əmri ilə rəsmiləşdirilir.

6.9. Cəmiyyətin İdarə Heyətinin qərarlarının qəbul edilməsində onun üzvləri arasında fikir ayrılığı yarandıqda, sədr öz qərarını həyata keçirir və bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verir.

**7. Cəmiyyətin sədri**

7.1. Cəmiyyətin sədri:

7.1.1. Cəmiyyətin fəaliyyətinə rəhbərliyi həyata keçirir;

7.1.2. müavinlər arasında iş bölgüsünü müəyyənləşdirir;

7.1.3. dövlət büdcəsindən meliorasiya tədbirlərinə ayrılan vəsaitin xərclər smetasını təsdiq edir;

7.1.4. Cəmiyyətin strukturuna daxil olan qurumların ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

7.1.5. Cəmiyyətin aparatının strukturuna daxil olan qurumların rəhbərlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onların barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

7.1.6. Cəmiyyətin fəaliyyətinə dair icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, habelə normativ-hüquqi aktların icrasını təşkil edir və yoxlayır;

7.1.7. beynəlxalq danışıqlarda iştirak edir, meliorasiya və su təsərrüfatı sistemlərinin yaxşılaşdırılması məqsədi ilə beynəlxalq müqavilələrin bağlanması üçün danışıqlar aparır, onları imzalayır və imzalanmış müqavilələrin icrasını təmin edir;

7.1.8. ilin yekun maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı balansa baxılması və malların alınması, iş və xidmətlərin görülməsi üçün müsabiqələrin keçirilməsi üzrə komissiyalar yaradır;

7.1.9. Cəmiyyət adından etibarnaməsiz fəaliyyət göstərir, onun mənafelərini bütün dövlət orqanlarında, müəssisələrdə, idarələrdə və təşkilatlarda müdafiə edir;

7.1.10. qanunvericiliyə müvafiq olaraq digər səlahiyyətləri həyata keçirir.

7.2. Cəmiyyətin sədri Cəmiyyətə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

7.3. Cəmiyyətin sədri iş yerində olmayanda və ya vəzifəsinin yerinə yetirilməsinə mane olan hallar meydana çıxdıqda, yaxud öz vəzifəsini yerinə yetirə bilmədikdə, onun səlahiyyətlərini müavinlərindən biri həyata keçirir.

**8. Cəmiyyətdə audit və maliyyə nəzarəti mexanizmi**

8.1. Cəmiyyət sədrə tabe olan daxili audit sistemi təsis edir. Daxili audit və bu sistemin işini icra edən şəxslər öz fəaliyyətlərində Cəmiyyətin struktur bölmələrindən asılı deyildirlər və öz funksiyalarını icra edərkən müstəqil qiymət vermək, nəticələr çıxarmaq hüququna malikdirlər.

8.2. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müstəqil (kənar) auditi qanunvericiliyə uyğun olaraq həyata keçirilir.

**9. Cəmiyyətin yenidən təşkili və ləğvi**

Cəmiyyətin yenidən təşkili və ləğvi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən həyata keçirilir.

## Beynəlxalq Qadınlar Günü qeyd olunub



***Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.***

Tədbirdə çıxış edən Daimi Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Azərbaycan xanımlarının həmişə sədaqət, fədakar, nəcib qadın mücəssəməsi olduğunu bildirib, xanımları bayram münasibətilə təbrik edib.

8 Mart – Beynəlxalq Qadınlar Gününün hər il Azərbaycanda geniş şəkildə qeyd olunduğunu bildirən Daimi Nümayəndəliyin rəhbəri diqqətə çatdırıb ki, milli varlığımızın ifadəsi olan çoxəsrlik milli-mənəvi dəyərlərimizin yaranmasında və təşəkkül tapmasında, yaşadılmasında qadınlarımızın misilsiz xidmətləri olub.

Vurğulanıb ki, ölkəmizdə dövlət qadın siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ötən əsrin 70-ci illərindən başlayaraq qadınlarımızın cəmiyyətdə rolu və fəallığı artıb, onların ictimai-mədəni həyatda yeri daha da möhkəmlənib.

Dahi rəhbərin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra qadınların dövlət idarəçiliyində təmsilçiliyinə, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olmasına diqqət göstərilib, bu sahənin inkişafını tənzimləyən qanunvericilik bazası yaradılıb, ölkəmiz qadın hüquqlarının qorunması haqqında bir çox beynəlxalq konvensiyalara qoşulub.

Qeyd edilib ki, dövlət qadın siyasəti bu gün ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində muxtar respublikada qadınların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Onlar dövlət aparatlarında, seçkili və seçkisiz orqanlarda irəliyə çəkilir, potensiallarından istifadə olunması, cəmiyyətimizin aparıcı hissəsi olan qadınların imkanlarından yetərincə bəhrələnmək diqqət mərkəzində saxlanılır. Bu gün müasirləşən və inkişaf edən muxtar respublikamızda bütün sahələrdə yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır. Muxtar respublika qadınları öz səmərəli fəaliyyətləri ilə Naxçıvanın sosial-iqtisadi, ictimai-siyasi həyatında yaxından iştirak edərək layiqli töhfələr verirlər.

**AZƏRTAC**

## 8 Mart Beynəlxalq Qadınlar Günüdür

# Muxtar respublikada qadınlar daim qayğı ilə əhatə olunurlar

***8 Mart – Beynəlxalq Qadınlar Günü hər il Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında təntənəli şəkildə qeyd olunur.***

Azərbaycan qadını tarixboyu ictimai fəallığı, Vətənə sədaqəti, ailəyə bağlılığı, fədakarlığı və qəhrəmanlığı ilə seçilmişdir. Qadınlarımız ailə dəyərlərimizin formalaşmasında və möhkəmlənməsində misilsiz xidmətlər göstərmişlər. Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə qadın amilinə yüksək dəyər verərək onların hüquqlarının müdafiəsi, problemlərinin həlli, dövlət idarəçiliyi sistemində təmsil olunması, bütün sahələrdə öz layiqli yerini tutması, cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirmişdir. ***“Zahiri gözəlliyi ilə daxili aləminin paklığının vəhdət təşkil etdiyi, öz səbri, təmkini ilə səciyyələnən Azərbaycan qadını dəyanət və sədaqət rəmzinə çevrilmişdir. Onun şəninə dastanlar qoşulmuş, ona dahilər və qəhrəmanlar anası deyilmişdir. Tariximizin keşməkeşli səhifələrinə Azərbaycan qadını qayğıkeş ana, fitri istedada malik şair, möhkəm iradəli hökmdar, dərin zəkalı mütəfəkkir kimi öz adını həkk etdirmişdir”***, – deyən ümummilli liderin bu sözlərində Azərbaycan qadınına verdiyi böyük dəyəri görmək olar. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etmişdir. Həmçinin ulu öndər Heydər Əliyevin imzaladığı “Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında” 1998-ci il 14 yanvar tarixli Sərəncamı və “Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında” 2000-ci il 6 mart tarixli Fərmanı ölkənin sosial-siyasi, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq məqsədilə imzalanmış mühüm dövlət sənədləri olmuşdur.

Bu gün ulu öndərin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət qadın siyasəti daha geniş müstəvidə həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qadınlarımıza yüksək qiymət verərək demişdir: ***“Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır”.***

Naxçıvan Muxtar Respublikasında da qadınların cəmiyyətin ictimai-siyasi həyatında rolu getdikcə artır. Bu, bir tərəfdən Naxçıvanda qadın fəallığı sahəsində çoxəsrlik tarixə söykənən zəngin ənənələr, digər tərəfdən isə muxtar respublikada həyata keçirilən dövlət-qadın siyasəti ilə bağlıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Azərbaycanda qadın adının həmişə uca tutulduğunu, qadına böyük ehtiram göstərildiyini bildirərək demişdir: ***“Gələcəyini düşünən hər bir ölkə qadına yüksək dəyər verir. Bu gün Azərbaycan qadınları da cəmiyyətin hər bir sahələrində uğurla çalışır. Təhsili, dünyagörüşü və mədəni səviyyəsi ilə seçilir. Eləcə də ölkəmizi beynəlxalq aləmdə təmsil edir. Eyni zamanda bu gün qadınlarımız ailənin aparıcı qüvvəsidir. Çünki ölkəmizin gələcəyi vətənpərvər və təhsilli gənclərdən asılıdır. Vətənpərvər, təhsilli və dünyagörüşlü gənclərin yetişməsində isə anaların böyük əməyi vardır”.*** Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması muxtar respublikada qadınlara verilən hərtərəfli dəstəyin, onların hüquqlarının yüksək səviyyədə müdafiə edilməsinin göstəricisidir.

Muxtar respublika əhalisinin 50 faizi, yəni 230 min 32-si qadındır. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Naxçıvan qadınlarının ictimai-siyasi fəaliyyəti ildən-ilə artır. Bunu statistik rəqəmlər də təsdiq edir. Hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 45 deputatından 11-i qadındır. Həmçinin Naxçıvan Muxtar Respublikasından Azərbaycan Milli Məclisinə seçilən 7 deputatdan 1-i qadındır. Bu gün qadınların Yeni Azərbaycan Partiyasında təmsilçiliyi də sürətlə artmaqdadır. Hazırda muxtar respublika təşkilatı üzvlərinin 24 min 840-ı, yaxud 44 faizi qadındır ki, onların da 104-ü ərazi ilk partiya təşkilatının sədridir. Sonuncu bələdiyyə seçkilərində üzvlərin 215-ni qadınlar təşkil edib ki, onların da 9-u bələdiyyə sədridir. Eyni zamanda Naxçıvan qadınları muxtar respublikanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edirlər. Belə ki, muxtar respublikada Ombudsman, nazir, komitə sədri, icra başçılarının müavinləri, rektor, hakim və vəkil vəzifələrində çalışan qadınlarımız da vardır. Həmçinin dövlət qulluğunda işləyənlərin 21, təhsil sahəsində işləyənlərin 68, mədəniyyət sahəsində işləyənlərin 65, səhiyyə və sosial təminat sahəsində işləyənlərin isə 76 faizi qadınlardır. Təhsil, mədəniyyət, səhiyyə və sosial xidmət müəssisələrində 111 qadın rəhbər vəzifələrdə çalışır.

Muxtar respublikada qadınlarımızın idmana cəlb edilməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, 9 mindən artıq qadın idmanın müxtəlif növləri ilə məşğul olur ki, bu da idmanla məşğul olanların 25 faizi deməkdir.

Naxçıvan qadınları Azərbaycan elminə mühüm töhfələr verərək elmi dərəcələr almışlar. Belə ki, muxtar respublikada elmlər doktorlarının 4-ü, fəlsəfə doktorlarının isə 100-ü qadındır. Bu da ümumi elmi dərəcəsi olan şəxslərin 35 faizini təşkil edir. 2018-2019-cu tədris ilində ali təhsil müəssisələrinə daxil olan abituriyentlərin 48 faizini, yəni 819-nu qızlar təşkil etmişdir ki, bunların içərisində 500-700 intervalında bal toplayanların 172-si, yaxud 61,2 faizi qızlar olmuşdur.

Qadınların sağlamlıqlarının qorunması, dünyaya gələn yeni nəslin sağlam doğulması və böyüməsi, körpə və ana ölümünün minimuma endirilməsinin daim nəzarətdə saxlanılmasının nəticəsidir ki, muxtar respublikada bu sahədə müsbət nəticələr əldə olunmuşdur.

Qadınların məşğulluğunun təmin olunması, müvafiq peşəyə yiyələnmələri üçün də bir sıra tədbirlər görülür, istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma və sair peşə kursları təşkil olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”na uyğun olaraq sağlamlıq imkanları məhdud, eləcə də aztəminatlı ailənin üzvü olan qadınlar peşə kurslarına cəlb olunur, məşğulluq problemləri aradan qaldırılır. Muxtar respublikada qadınlar ildən-ilə kiçik və orta sahibkarlıq fəaliyyəti sahəsində geniş imkanlarla əhatə olunaraq müvafiq sahədə təmsil olunmağa başlayıblar. 2020-ci il 1 yanvar tarixə olan statistik məlumata əsasən qeydiyyatda olan qadın sahibkarların sayı 6 min 667-dir. Onlardan 58-i hüquqi, 6 min 609-u isə fiziki şəxslərdir.

Hazırda muxtar respublikada 940 ailə təsərrüfatı qeydiyyata alınmışdır ki, bunun da 67-si qadınlar tərəfindən idarə olunur. Bununla yanaşı, qadınların istedad, bacarıq və potensiallarının üzə çıxarılması, həmçinin ailə və milli dəyərlərimizi, adət-ənənələrimizi qorumaq və gələcək nəsillərə çatdırmaq məqsədilə onların rəsm və əl işlərindən ibarət sərgi-satışlar keçirilir, hazırladıqları əl işləri nümayiş olunur. 2019-cu ildə qadınların əl işləri mağazasında və festivallarda, eləcə də keçirilən məhdud fiziki imkanlıların və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışlarda 378 istedadlı şəxsin 22 min 133 manatdan çox dəyərdə 2042 əl işi satılaraq dəyərləri iş sahiblərinə ödənilmişdir.

Muxtar respublikada qadınların fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, onlar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, mükafatlara layiq görülür, medal və nişanlarla təltif edilirlər. Belə ki, muxtar respublika qadınlarının 166-sı Azərbaycan Respublikasının, 172-si isə Naxçıvan Muxtar Respublikasının fəxri adına və mükafatına layiq görülmüş, 148 qadın orden, medal və nişanlarla təltif olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Azərbaycan qadınının ictimai həyatımızdakı mövqeyi dilimizə, Vətənimizə, torpağımıza, dövlətimizə, milli dəyərlərimizə və Azərbaycançılıq məfkurəsinə sədaqət nümunəsi olmuşdur və gələcəkdə də olacaqdır”.***

*Muxtar respublika qadınlarının bütün uğurlarının təməlində dövlətimizin böyük dəstəyi və davamlı qayğısı dayanır. Muxtar respublikada qadınların həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi xalqımızın uğurlu, xoşbəxt sabahına, firavanlığına ən ciddi təminatlardan biridir.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## 10 mart Azərbaycanda Qızıl Aypara Cəmiyyətinin yarandığı gündür

# Xeyirxahlıq və humanizmin carçısı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 7 aprel tarixli Sərəncamına əsasən hər il martın 10-u Azərbaycan Respublikasında “Qızıl Aypara Günü” kimi qeyd olunur.***

Azərbaycanda Humanitar və xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən Qızıl Aypara Cəmiyyəti 1920-ci il martın 10-da Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri, general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilmişdir. Yarandığı vaxtdan başlıca məqsədi də xeyirxah ideyalar olub. Kimsəsizlərə, fəlakətlə üz-üzə dayananlara, ehtiyacı olanlara kömək edib. Lakin 1920-ci ilin aprelində Azərbaycanda sovet hökuməti qurulduqdan sonra Qızıl Aypara Cəmiyyətinin də fəaliyyəti dayandırılmışdır. 1923-cü ildə yenidən yaradılan qurum 1991-ci ilə kimi özünəməxsus tarixi yol keçən cəmiyyət ölkəmizdə xeyirxah ideyaların reallaşmasına mühüm töhfələr vermişdir.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə ikinci qayıdışından sonra Qızıl Aypara Cəmiyyəti yeni inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. Belə ki, Azərbaycan Respublikası Milli Məclisinin Qərarı ilə cəmiyyət ölkəmizdə rəsmi humanitar təşkilat kimi tanınmış, 1995-ci il noyabrın 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam bərabərhüquqlu və daimi, 169-cu üzvü qəbul edilmişdir.

Qeyri-hökumət təşkilatı olan Azərbaycan Qızıl Aypara Cəmiyyəti dövlətin qayğısı əhatəsində fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 31 yanvar tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında”, 2007-ci il 22 may tarixli “Azərbaycan Qızıl Aypara Cəmiyyətində çalışan işçilərin əməkhaqlarının dövlət büdcəsindən maliyyələşdirilməsi haqqında”, 2008-ci il 7 aprel tarixli “Qızıl Aypara Gününün təsis edilməsi haqqında” sərəncamları cəmiyyətin fəaliyyətinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının bariz nümunəsidir. Sərəncamlara əsasən cəmiyyətin maddi-texniki bazası yaxşılaşdırılmış, icra hakimiyyəti və özünüidarəetmə orqanlarının cəmiyyətin yerli təşkilatlarının sosial, tibbi sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə köməklik göstərməsi təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi də dövlətin qayğısından lazımınca bəhrələnir. 2008-ci il yanvarın 10-da komitə yeni inzibati bina ilə təmin olunmuş, maddi-texniki baza yaxşılaşdırılmış, xidməti və yük avtomobilləri verilmiş, əməkdaşların səmərəli fəaliyyətinə hərtərəfli şərait yaradılmışdır. Son illər kollektivin sosial təminatının gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlər görülmüş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 1 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 25, 2010-cu il 1 sentyabr və 2011-ci il 1 dekabr tarixli sərəncamlara əsasən isə 10 faiz artırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısının nəticəsidir ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi işçilərinin əməkhaqları 10 faiz, 2016-cı ilin fevral ayında isə əlavə 10 faiz artırılmışdır. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinə yeni xidməti minik avtomobili verilmişdir. 2019-cu ilin sentyabr ayında komitə işçilərinin əməkhaqları əlavə olaraq artırılmışdır.

Tərkibində 1 şəhər, 7 rayon bölməsi fəaliyyət göstərən komitənin 580 ilk təşkilatı və 37000-dən artıq üzvü vardır. Hazırda komitə muxtar respublikamızda öz işini 4 şöbə əsasında qurur. Belə ki, Axtarış xidməti şöbəsi Stalin repressiyası, İkinci Dünya müharibəsi və miqrasiya zamanı itkin düşənləri axtarır, həmçinin qaçqın və məcburi köçkünlər üçün lazımi sənədləri bərpa edir. Komitənin ən əhəmiyyətli şöbələrindən biri Gənclər və könüllülərlə iş şöbəsidir ki, bu şöbə gələcəyimiz olan gənclərin sağlamlığı məqsədilə idman, gigiyena, təmizlik və təbiətin mühafizəsi kimi tədbirlərin təşkili ilə məşğul olur. Eyni zamanda yeniyetmə və gənclərə fövqəladə hallarda ilk tibbi yardımın göstərilməsinə dair məlumatlar verilir. XX əsrin vəbası adlandırılan QİÇS xəstəliyinə yoluxmamaq üçün onlar arasında maarifləndirici söhbətlər aparılır. Təşkilati iş şöbəsi muxtar respublikamızda fəaliyyət göstərən idarə və müəssisələrdə komitənin ilk təşkilatlarını yaradır və Qızıl Aypara hərəkatı haqqında seminar və treninqlər təşkil edir. Bununla yanaşı, komitənin şəhər və rayon bölmələrinin işinə nəzarəti də həyata keçirir. Digər şöbə isə daha çox fövqəladə hallarla bağlı əhali arasında bilikləri artırmaqla və bu sahədə müvafiq tədbirlər görməklə məşğul olur. Bunun nəticəsi olaraq 5 yanvar 2017-ci il tarixdə fövqəladə hallara hazırlıq çərçivəsində Bakı şəhərindən hər biri beş nəfərin müvəqqəti yaşaması üçün nəzərdə tutulmuş 30 çadır komitəyə gətirilmişdir.

Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsinin kollektivi bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, humanizm və xeyirxahlıq ideyalarının qoruyucusu və təşkilatçısı kimi fəaliyyətini artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Qızıl Aypara Komitəsi***

# Həvayət Qurbanova ilə görüş



8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində yaşayan Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanova ilə görüş keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aytən Məmmədova, Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Həvayət Qurbanovanı qarşıdan gələn 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik ediblər. Bildiriblər ki, muxtar respublikada bütün qadınlarımız, o cümlədən Həvayət Qurbanova kimi zəhmətkeş qadınlarımız daim dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır, onlara qayğı göstərilir. Tədbir iştirakçıları Həvayət Qurbanovaya gül buketi və hədiyyə təqdim ediblər.

Sonda Həvayət Qurbanova ona göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Hünər, qəhrəmanlıq, cəsarət nümunəsi: Azərbaycan qadını

*Dövlət qadın siyasəti ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Biz də 8 Mart – Beynəlxalq Qadınlar Günü ərəfəsində muxtar respublikamızın ictimai-siyasi həyatında fəal iştirak edən qadınlarımızın bir neçəsi ilə həmsöhbət olduq.*

***Aidə Cəlilzadə*** Babək qəsəbə tam orta məktəbini əla qiymətlərlə bitirərək 2004-2005-ci illərdə Gələcək Liderlər Mübadiləsi (FLEX) proqramı çərçivəsində Amerika Birləşmiş Ştatlarında təhsil alıb. Təhsil müddətini müvəffəqiyyətlə başa vurub və dövlət imtahanından uğurla keçdiyi üçün ABŞ dövlətinin rəsmi diplomunu alıb, sertifikat və medalla təltif olunub. 2004-2009-cu illərdə Naxçıvan Dövlət Universitetində İngilis dili ixtisası üzrə bakalavr, 2009-2012-ci illərdə Naxçıvan Dövlət Universitetinin Pedaqogika nəzəriyyəsi və tarixi ixtisası üzrə magistr təhsili alıb. Tələbə Elmi Cəmiyyətinin sədri kimi elmi-ictimai fəallığı ilə seçilib. 2009-cu ildən Naxçıvan Dövlət Universitetində çalışır, 2014-cü ildən isə bu ali təhsil ocağının dissertantıdır.



Onu da bildirək ki, Aidə xanım 7 elmi və publisistik məqalənin müəllifidir. Bir sıra regional və respublika səviyyəli konfransların, beynəlxalq layihə və təlimlərin, beynəlxalq ixtisasartırma və onlayn kursların iştirakçısı olub və nailiyyətlərinə görə sertifikatlara layiq görülüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbəti seçkilərdə 28 saylı Naxçıvan Şəhər Seçki Dairəsi üzrə seçicilərin 2482-nin və ya 67,8 faizinin səsini toplayaraq deputat olub.

Aidə xanım deyir: – Düzgün yolda olarkən, uğur özü gec-tez insanı tapır. Məhz qazandığım seçici etimadı da bu fəaliyyətimin nəticəsi hesab oluna bilər. Həm ictimai, həm də siyasi fəaliyyətim, bir müəllim kimi tələbələrimin rəğbətini qazanmaq, ailəmin dəstəyi hər addımımda məni yeni uğurlara imza atmağa daha çox ruhlandırır və üzərimə düşən məsuliyyəti artırır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda bir çox yüksək vəzifələrdə, dövlət idarəçiliyində, müxtəlif təşkilatların rəhbərləri sırasında məhz istedadlı gənclərimizi görmək ölkə vətəndaşı olaraq bizi çox sevindirir və daha səylə çalışmağa ruhlandırır.

Bundan sonra da həm Naxçıvan Dövlət Universitetinin müəllimi, həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi ictimai-siyasi fəaliyyətimi davam etdirəcək, mənə göstərilən etimadı doğrultmaq üçün daha səylə, var-qüvvəmlə çalışacağam.

Tanrı bəndələrinin hər birinə alın yazısı və ruzi bəxş edib. Birinə yüksək mənəviyyat, əxlaqi keyfiyyət, digərinə zəka və idrak, kimisinə isə bu məziyyətlərlə yanaşı, əllərinə şəfa, ürəyinə təpər də verir ki, insanların sağlamlığı keşiyində dayansın. Müsahibim Naxçıvan Muxtar Respublika Xəstəxanasının Təcili təxirəsalınmaz və planlı yardım şöbəsinin müdiri ***Pəri Əliyeva*** da çox insanlara şəfa, naümid gözlərə ümid, nigaran baxışlara sevinc bəxş edən bu nəcib peşənin sahibidir. O deyir: – Həkimlik rahatlıq sevənlərin sənəti deyil, gecəsi, gündüzü bilinməyən peşədir. Amma nə qədər əzab-əziyyətli olsa da, şərəflidir. Çəkdiyin əziyyətin sonunda bilirsən ki, kiminsə həyatını xilas etmisən, sevindirmisən. Belə məqamlarda keçirdiyi həyəcan da, əziyyətlər də insanın gözünə görsənmir. Həkim işlədiyim vaxtlardan bu günə kimi belə məqamlarla çox rastlaşmışam. Narahat ürəklərə təsəlli vermək, baxışlardakı nigarançılığı, narahatlığı sevincə çevirmək mənim üçün dünyanın ən böyük xoşbəxtliyidir. Pəri həkim qeyd edir ki, bu gün muxtar respublika səhiyyəsi dövlət qayğısı ilə əhatə olunub. Tibb işçiləri dövlət tərəfindən müxtəlif ölkələrə təkmilləşdirmə kurslarına göndərilir. Xəstəxanalarımız ən müasir avadanlıqlarla təmin olunub. Bu da bizə imkan verir ki, işimizi daha yaxşı quraq və öhdəsindən layiqincə gələk.



Bu gün cəmiyyətimizdəki bəzi gənclər peşə borclarını ən ucqar kəndlərdə yerinə yetirirlər. Elə gənc müəllimlərimiz də artıq könüllü olaraq cəbhə bölgəsində çalışmağa daha çox üstünlük verirlər. Onlar düşmən gülləsinin bir addımlığında fəaliyyətləri ilə, cəmiyyətimiz isə belə fədakar gəncləri olduğu üçün qürur duyur.

***Günay Həsənbəyli*** ilə həmsöhbət olduğumuzda Bakı Dövlət Universitetini bitirdikdən sonra əmək yarmarkasında vakant yer kimi ilk sırada Sədərək Rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbini seçərək fəaliyyətinə İnformatika müəllimi kimi başladığını bildirdi:



– Peşəmi də, şagirdlərimi də sevirəm. Dövlətin diqqət və qayğısı sayəsində məktəbimiz müasir tələblərə cavab verən binada yerləşir. Təhsil ocağı şəhər və rayon mərkəzlərində fəaliyyət göstərən digər məktəblərdən heç də fərqlənmir.

Günay deyir ki, arzum budur, uzun illər burada çalışam. Nə zamansa başqa məktəbdə fəaliyyət göstərməli olsam, qürurla deyəcəyəm ki, mən təmas xəttinə ən yaxın məsafədə yerləşən Sədərək kənd bir nömrəli tam orta məktəbdə işləmişəm!

Məktəbin pəncərələrindən düşmən postlarını aydın şəkildə müşahidə etmək mümkündür. “Belə bir yerdə dərs demək sizdə hansı təəssüratları yaradır?” – sualıma gənc müəllim belə cavab verir:

– Doğrudur, cəbhə bölgəsində yaşayıb işləyirik, ancaq torpaqlarımızın etibarlı müdafiə olunmasına əminik. Yaradılan şərait bütün şagirdləri dərsə, təhsilə həvəsləndirir. Bu, çox sevindirici haldır. Heç bir qorxu hissi keçirməməyimizin səbəbi isə ordumuza güvənimizdir. Şəhər mərkəzində necə rahat idimsə, burada da eləyəm. Çünki düşmən təxribat törətmək istəyəndə əsgərlərimiz onların cavablarını layiqincə verirlər.

İstəyirəm ki, pedaqoji ixtisasa yiyələnən gənclər heç nədən çəkinmədən gəlib kənd məktəblərində işləsinlər, – deyən müsahibim onu da bildirdi ki, ucqar kənddə işləmək bir qədər çətin olsa da, daha maraqlıdır. Əsas odur ki, işimizi sevək, şərəfli müəllimlik peşəsini layiqincə davam etdirək.

Onu da bildirim ki, Günay müəllim çox gözəl portretlər də çəkir. O gördüyü gözəllikləri kətan üzərinə köçürür. Muxtar respublikada ilk dəfə keçirilən Yaradıcı gənclər festivalında da iştirak edib. Sədərək rayonunda fərdi sərgisi təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən Ağır atletika bölməsinin idmançısı ***Gülcahan Əliyeva:***

– Bu gün muxtar respublikada bütün sahələrdə olduğu kimi, idmanın müxtəlif növlərinin inkişafı üçün də hərtərəfli şərait yaradılıb. Bu, biz gənc nəslin fiziki inkişafına, sağlamlığımızın qorunmasına mühüm təsir göstərir. Təbii ki, bütün bunlar biz gənc idmançıların yarışlarda uğurlu çıxışları üçün zəmin yaradır.



2004-cü ildə Şərur rayonunun Məmmədsabir kəndində anadan olan ağır atletimiz Şərur şəhər 1 nömrəli tam orta məktəbin X sinfində təhsil alır. Məşqçi-müəllim Şəfi Hüseynovun rəhbərliyi ilə ağır atletika ilə məşğul olan Gülcahan deyir ki, bu idman növünü zərif cinsin nümayəndələri üçün çətin hesab edirlər. Lakin mənə görə bu, belə deyil. Məşqçi-müəllimimin rəhbərliyi ilə gərgin məşqlər nəticəsində rayon, muxtar respublika və Azərbaycan səviyyəli yarışlarda, beynəlxalq turnirlərdə gənc qadın idmançıların arasında keçirilən yarışlarda Naxçıvanın idman şərəfini qorumağa çalışmışam. Belə ki, ötən il Bakı şəhərində gənc qadınlar arasında ağır atletika üzrə keçirilən yarışda gümüş medal qazanmışam. Həmin ilin iyul ayında Bakı şəhərində qızlar arasında keçirilən Azərbaycan birinciliyinin mükafatçısı, oktyabr ayında Bakı şəhərində ağır atletika üzrə respublika yarışlarının IV mərhələsində və noyabr ayında Bakı şəhərində yeniyetmələr arasında keçirilən “Azərbaycan kuboku” yarışında isə ikinci olmuşam. Fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Ali Məclisin Sədri tərəfindən mükafatlandırılmağım, eləcə də bu günlərdə muxtar respublikada keçirilən ilk “İdman festivalı”nda iştirakım növbəti qələbələr əldə etməyim üçün böyük stimul oldu. Fəxrlə demək istəyirəm ki, biz idmançıların bu mötəbər yarışlarda qələbə qazanması muxtar respublikada idmana göstərilən dövlət qayğısının nəticəsidir.

*Yaşadığı yerdən, işlədiyi vəzifədən asılı olmayaraq, bu gün hər bir azərbaycanlı qadın fədakar, vətənpərvər övladlar yetişdirməklə yanaşı, çalışdığı yerdə öz vəzifəsini layiqincə yerinə yetirir, doğma yurdumuzun inkişafına öz töhfəsini verir.*

**Ramiyyə ƏKBƏROVA**
**Güntac ŞAHMƏMMƏDLİ**

*Boz ay dönəmində, yəni Novruz bayramına qədər dörd ilaxır çərşənbədə dörd ünsür oyanır. Bu, qədim türk mifik görüşləri ilə bağlıdır. Hər bir ilaxır çərşənbəni simvollaşdıran, dünyanın yaranmasında aparıcı mövqe daşıyan bu ünsürlər Novruzla bağlı fəlsəfi düşüncənin əsaslarındandır. Su, Torpaq, Yel, Od ünsürlərinin köməyi ilə təbiət canlanır. Artıq onlardan ikisini – Su və Torpaq çərşənbələrini arxada qoymuşuq.*

*Xalq təqvimi*

## Yel çərşənbəsi: *“Küləkli hava gərəkli olar”*



Növbəti – üçüncü ilaxır çərşənbə Yel çərşənbəsidir. Buna bəzən xalq arasında “toz çərşənbə” də deyirlər. Təbiət qüvvələrinə etiqadla yanaşan, ondan kömək uman, aman diləyən xalq əzizləmə xarakterli adlarla da bu məqsədini açıq-aydın büruzə verir. Belə ki, zamanla yelin təsərrüfata gərəkli olduğunu düşünüb və onu “əzizləyərək” “külək oyadan çərşənbə”, “küləkli çərşənbə”, “yelli-güllü çərşənbə”, “yelli çərşənbə” də adlandırıb. Yel çərşənbəsində yelin ayılması, əsməyə başlaması bəzi təsərrüfat işlərinin də sahmana salınmasına yardım edir. Xalq arasında “Küləkli hava gərəkli olar” atalar sözü də bu məqamı təsdiqləyir.

Dünyanın yaranmasında yel ikinci ünsür sayılır. Yel nəfəsalma mexanizmi kimi təzahür edərək həyat prinsipi ilə birbaşa bağlanır. Azərbaycan xalqının folklor örnəklərinə əsasən söyləmək olar ki, Yel çərşənbəsi zamanı müxtəlif ayin və mərasimlərin icrası mütləqdir. Xalq düşüncəsində yelin müqəddəs anlam daşıması xalqımızın şifahi təfəkküründə uzun müddət yaşayıb. Bu baxımdan Azərbaycanın bəzi bölgələrindən toplanmış mərasim örnəkləri haqqında məlumatlar yelin bir zamanlar xalqımızın düşüncəsində kult məqamında olduğunu sübut edir. Naxçıvan ərazisindən toplanmış folklor örnəklərinə əsasən söyləmək mümkündür ki, xalqın folklor yaddaşında Yel kultu – Yel yiyəsi (əyəsi) ilə bağlı maraqlı mifik mətnlər, inancsınama nümunələri mövcuddur. Məsələn, Yel çərşənbəsi zamanı yel yiyəsinin ayıldığına inanc var. “Əyə” kultuna, sözünə Naxçıvan ərazisində daha çox rast gəlirik. Xalq belə deyir: “Yel çərşənbəsində yel ayılır, külək əsir, havanın ağırlığı sınır”. Bu inanclar qədim türklərdə yelin kult səviyyəsində olduğunu nümayiş etdirir. Yelin “baba” hesab edilməsi xalqımızın şifahi təfəkküründə özünə yer tapıb.

Əvvəldə qeyd etdiyimiz kimi, Yel çərşənbəsində, ümumiyyətlə, Azərbaycanda, o cümlədən muxtar respublikamızın şəhər və kəndlərində bir-birindən maraqlı ayin və mərasimlər icra edilir. Bunların çoxunda Yel Tanrısına sitayiş əks olunur. Evlərdəki paltar-palazın açıq havaya çıxarılıb tozunu təmizləmək, xırman mərasiminin aktual olduğu vaxtlarda taxılın biçilib xırmana yığılması ilə icra olunan “Yel baba” mərasimi Yel Tanrıçılığına inamı təsdiqləyir. Yel çərşənbəsi zamanı qəbirüstü ziyarətlər də təşkil olunur. Dünyadan köçən insanların xatırlanması münasibətilə ehsanlar bişirilib paylanılır, qəbirlər ziyarət edilir. Həmin ildə yas düşən evin sakinləri yasdan çıxarılır. Ordubad rayonunda buna “paxır bayramı” deyilir. Belə ki, bu çərşənbəyədək ölümünün qırx günü tamam olmayan mərhumun evinə yaxınlar, qohumlar toplaşır. Onun ailə üzvləri ilə birgə evdə bayrama hazırlıq görürlər. Şirniyyatlar bişirilir, evin sakinlərinə bayram əhval-ruhiyyəli libaslar geyinmək tövsiyə olunur. Beləliklə, həmin ailə də digər ailələr kimi, sosial birlikdən, el-obanın bayram əhval-ruhiyyəsindən kənarda qalmır.

Uca Tanrı ömrünüzə nur qatsın, diləyiniz gerçək olsun! Yelli-güllü çərşənbənin yeni nəfəsli, yeni ruhlu qədəmləri uğurlu olsun!

**Aytən CƏFƏROVA**
***AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2020-ci ilin fevral ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3534 | 261,5 | 261,5 | 100,0 |
| 2. | Şərur rayonu | 2086 | 148,2 | 148,2 | 100,0 |
| 3. | Babək rayonu | 1491 | 106,3 | 106,3 | 100,0 |
| 4. | Ordubad rayonu | 900 | 63,6 | 63,6 | 100,0 |
| 5. | Culfa rayonu | 815 | 58,2 | 58,2 | 100,0 |
| 6. | Kəngərli rayonu | 549 | 39,6 | 39,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 395 | 28,8 | 28,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 167 | 12,0 | 12,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 15508 | 1395,7 | 1399,8 | 100,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25445** | **2113,9** | **2118,0** | **100,2** |

**Qeyd:** Fevral ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 445 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 113 min 900 manat olmuş, cəmi 2 milyon 118 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,2 faizini təşkil edir.


***Bildiriş***

Culfa “Əbrəqunus-Şərab” ASC-nin səhmdarlarının nəzərinə çatdırılır ki, 10 mart 2020-ci il tarixdə cəmiyyətin səhmdarlarının illik ümumi yığıncağı keçiriləcək.

***İtmişdir***

Şərur rayonu, Çomaxtur kənd sakini Əhmədov Elxan Səfər oğlunun adına verilmiş 102013000002 reyestr nömrəli plan-ölçü və çıxarış idiyindən etibarsız sayılır.

* * *

Babək rayonu, Didivar kənd sakini Məmmədov Asəf Xəlil oğlunun adına olan $135^A$ inventar nömrəli torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 239